www.achiq.org

S.C.Pişəvəri

# Birinci kəndli konfransında

Firqəmiz təşkil olunanda Azərbaycanın vəziyəti çox çətin və ağır idi. Jandarmlar kəndliləri dəstə dəstə gətirib zindanlara salırdılar, əlbəttə bununla da məqsudları o idi ki, kəndliləri soyub özlərinə tiryək pulu düzlətsinlər. O vaxt bizə kəndlilər hər tərəfdən şikayətə gəlirdilər, biz də firqə tərəfindən neçə nəfər ayırıb onların işlərinə ədliyyədə rəsidəlik etməkdən ötrü göndərdik. Hamıya mə'lumdur ki, o vaxt ədliyyə bizim işlərimizə necə baxırdı. Bunagörə də firqəmiz kəndliləri jandarm və sayir dövlət mə’murlarının fəcayelərindən xilas etmək üçün yol axtarırdı, bu yol çox sadə bir surətdə tə’yin edildi. Biz kəndlilərə dedik ki, əgər azadlıq istəyirsiz gərək əlinizə tufəng götürəsiz. Kəndli bizim göstərişimizi qəbul edib onun mal, can və namusuna təcavüz edən jandarm dəstələrini kəndlərdən qovub çıxardı. Təcrübə də görüldü ki, bu kafi deyildir,Təbrizdə və sayır yerlərdə oturan mürtəce mə’murlar bu sadəlik ilə kəndlinin canindan əl çəkəmyiəcəklər, ona görə firqə ikinci qədəmi götürməyə məcbur oldu. Bu isə dövlət təşkilatını ələ keçirməkdən ibarət idi. Bu iş əlinə silah keçmiş kəndlilərin köməyi ilə əncam tapdı, indi isə kəndli qabağında böyük bir vəzifə durur. O da alınan azadlığı saxlamaqdan ibarətdir. İndi kəndlilərimiz gərək öz ittiıhadları sayəsində daha böyük bir qüdrət vucuda gətirsinlər ki, o qüdrətin qorxusundan heçəks ona zor edə bilməsin, buna görə də gərək bizim tamam kəndlilərimiz siyasətə qarışsınlar, Milli Hökümətimiz fəaliyyəti sayəsində kəndlilrə sabıt oldu ki, həqiqi kəndli azadlığı odur ki, kəndlilər özünün dərdinə dəyən bir dövlət düzlədib onun dalında dayansınlar.

Biz hələ mübarizə meydanındayıq. Lakin biz istəmirik qan tökülsün. Çünkü bir nəfəri öldürmək asandır, yaratmaq isə çətin! Vəli hərgah bizi məcbur etsələr əminik ki, bu mübarizədə kəndlilər bizim dalımızda dayanacaqlar və elə də vardır. Kəndlilərimiz əllərinə keçmiş yerləri saxlamaqdan ötrü Azərbaycan torpağından qarış - qarış difa' edəcəklər, necə ki, indi Zəncanda və Mərağa ilə Miyana arasında kəndli fədailər irtica’i qüvvələri sındırıb böyük miqdarda hərbi qənimət ələ keçirməyə müvəffəq olduğunu sevinclə eşidirsiz. Əlbəttə kəndli yaxşı bilir ki, aldığı torpağı göz bəbəyi kimi qorumaq lazımdır.

Biz kəndlilərə torpağı müftə verdik. Lakin bu il ayrı sahələrdə onlara kömək edəbilməyəcəyik, çünkü, kənd məsələsində tək topraq deyil. Biz gərək kəndlilərə lazımı kömək edib onlara traktor və sayir fəlahət maşınları verək. Torpağı pulsuz verdiksə də bunları müftə verəbilmərik. Əgər istəyək ki, bunları da müftə verək gərək xalqdan çoxlu vergilər yığmağa çalışaq. Bu isə olası işlərdən deyildir. Lakin gələcəkdə bu

maşınları fəlahət bankının vasitəsilə alıb kəndlilərə əqsat ilə verəcəyik, bu əlbəttə hökümətimizin qabağında duran əsas msələlərdəndir, əgər dünya dağılsa da bu yerləri kəndlilərdən heç bir qüvvə geri alabilməyəcək. Necə ki, indi Tehran höküməti də məcburən boynunu əyib Azərbaycanda sılah gücü ilə həll olunan kəndli ilə ərbab məsələsini İranın ayrı nuqtələrində də əməli etmək istəyir. Lakin onlar bunu edəbilməzlər. Əlbəttə Milli Hökümət həmişə qalacaq və yaşayacaqdır. Çünkü, o edəbilir xalqın səadətini istədiyi kimi tə´min etsin, kəndlilər aldıqları topraqlarından keçməyəcəklər.

Biz kənlilərdən əllərindəki silahları heç vaxt almayacağıq, qoy kəndlilrimiz azadlığını tə'min edən tüfənglərini zəmilərdə yer şuxumlamağa gedəndə də özləri ilə aparsınlar. Biz bilirik kəndlilərimiz bu silahlarını hətta öz qardaşlarına da verməyəcəklər. Kəndlilər yaxşı anlayıblar ki, həqiqi azadlıq olmasa onlar öz yerlərində azad yaşaya bilməyəcəklər. İndi Azərbaycan xalqı anlayır ki, hökümət öz intixab etdiyi adamların əlində olsa onlardan ötrü səadətli yaşayış ola bilər...zənn edirəm ki, bu barədə aqayi Padəqan lazımı tövzihat veribdir. Qoy kəndlilər bilsinlər ki, yer onların özlərinindir. Tehran höküməti istəyirdi ki, xalisə yerlərin məsələsini çətinliyə salsın və belə eləsin onlar da ərbab ixtiyarına keçsin. Vəli biz onu fövri və sadəcə surətdə həll etdik, biz kəndlilərə dedik ipi götürub yerləri bölün, kəndlilər dövləti təşkil edən bir qüvvə olduğu üçün topraq da onundur. Vəli Azərbaycanda bə'zi maliklər var ki, onların yaşayışları iki – uç dang xalisə yerdən ibarətdir ki, o da neçə il dolanıb keçdikdən sonra son zamanlarda onların əlinə çatmışdır və onların verdiyi pulları da visul olmamışdır. Biz haqqı malikiyyəti pozmadığımız üçün bu işi dəftər üzü ilə təhqiq edib yerlərinin pulunu verəcəyik, biz heç kəsə zülüm etmək istəmirik, lakin zülüm və faciəyə də yol verəmyəcəyik.

Kəndli məsələsi fəqət topraqla kifayətlənmir, bizim kəndlilərimiz gərək başardıqca tütün, pambığ, qənd çuğunduru, çay və bu kimi qimətli sənaye bitgiləri ziraət etsinlər. Azərbaycanın uzaq nüqtələrində əkilən arpa - buğdanı gətirib satmaq kəndlilərimizə sərf etmir, gərək daha faydalı ziraət və fəlahət işlərinə başlamaq. Biz grək Nuh əyyamından qalan xışı buraxıb traktor və sayir fəlahəti maşınlarla ziraət edək. Əlbəttə, dövlət istəyirdi bunu bu il əməli etsin, lakin müharibə taza qurtardığı üçün bu kimi maşınlar çox baha başa gəlirdi. Ona görə bu ili də səbr edib gözələmək lazım gəldi. İndi artıq kəndli üçün geniş bir azadlıq vicuda gəlmişdir. Hər kəs istədiyi kimi yaşayır və istədiyi məhsulu əkib biçə bilir. Daha heç kəs onun haqqına təcavüz edə bilməz, biz e'tiraf edirik ki, indiki azadlığımızın səbəbi kəndlidir, əgər kəndli olmasydı biz bunu əldə edə bilməzdik, kəndlilər bu höküməti yaratdıqları üçün onun dalında dururlar, əgər vəziət qabaqkı kimi olsaydi qışda qardan bağlanan yollar aylarla açılmazdı. Lakin kəndlilərimiz fədakarcasına qoymadılar bir gün də olsa rabitə kəsilsin, kəndli qüvvəsi böyük bir qüvvədir ki, sel kimi heç bir kəs onun qabağında dura bilməz. Nəqədər ki, Milli Hökümət dəvam edir Azərbaycanda kəndli birinci yer tutacaqdır. ***Azərbaycanın birinci və həqiqi ağası kəndlidir*** çünkü işimiz bərkə düşndə ona müraciət edirik, onlar azadlığın qədərini bilənlərdilər. İndi biz sizi ona görə çağırmışıq ki, yer bölgüsünü örgədək, gərək kəndlərdə bölgü zamanında hampa ilə qərə arasında narazılıq əmələ gəlməsin, bundan sonra gərək Azərbaycan kəndlərində qərə olmasın, hamısının ziraəti, təsərüfatı və

xoş yaşayışı olsun. Hamımız qardaşıq gərək hamımiz əl ələ verib bu azadlığımızı saxlayaq. Qoy Azərbaycan kəndlisinin yaşadığı yerə jandarmların və mürtəcelərin murdar ayaqları dəyməsin.

Qoy Tehran höküməti bilsin ki, hamı bu hökümətə bel bağlayıbdır, çünkü bunu idarə edən xalqın həqiqi adamlarıdır. Bizim dəstgahımızda oğru - əyrilərə yer yoxdur.

*Biz deyirik ki, hökümət başında gərək Azərbaycanlı olsun fəqət xalqın öz içərisindən çıxmış adam xalqın istəyini bilər.*
İndiyə qədər İran və Azərbaycan tarixində görünməyib ki, xalq öz istədiyi kimi hökümətini qursun. Düzdür ki, dəfələrlə Azərbaycan xalqı ələm götürüb azadlığını alıb, lakin Milli Hökümət qurulmağa qədər ondan istifadə edəbilməmişdir. *Milli Hökümət isə əməldə bu işi görməyə müvəffəq olduğunu isbat etdi.* İndi bu dörd ayın ərzində heç kəs gəlib bir kəndlinin qapısını döyməyib ki, toyuq, yumurta, kərə və başqa şei tələb edə. Dörd aydır ki, xalqımız azadlıq və rahatlıq görür. Bu azadlığı biz sizin köməyiz ilə saxlamalıyıq.
*Yaşasın azadlığımız, yaşasın onun həqiqi püştiybanı olan qeyrətli kəndlilərimiz!*

*(«Azərbaycan» ruznaməsi, 5 şənbə 29 Fərvərdin 1325-ci il numrə 176 ikinci dövrə)*